**Neft emulsiyasının susuzlaşması, duzsuzlaşması əməliyyatlarını aparmaq üçün səthi-fəal maddələr və həlledicilər əsasında effektiv deemulqatorların işlənib hazırlanması və tətbiqi**

Fənn: Neft emulsiyalarının susuzlaşdırılması və duzsuzlaşdırılması Səviyyə: Baza, ümumi əsaslar
Müddət: 5 gün
Təlimatçı: k.e.n., dosent Kazım Mətiyev

Bu intensiv beş günlük baza kursları neft emulsiyalarının susuzlaşdırılması və duzsuzlaşdırılması prosesinin əsaslarını özündə cəmləyir.

Kursun iştirakçıları neft emulsiyalarının susuzlaşdırılması və duzsuzlaşdırılması üçün tətbiq edilən deemulqatorlar haqqında zəruri bilikləri öyrənəcək, sonda isə elmi-tədqiqat laboratoriyasında aparılan təcrübələrlə əyani tanış olacaqlar.

**Nəzərdə tutulur :**

Bu sahədə çalışan mühəndislər, operatorlar, texnik və laborantlar üçün nəzərdə tutulur.

**Öyrəniləcək material:**

- Su-neft emulsiyalarının dağıdılmasının zəruriliyi. Deemulqatorlar haqqında məlumat.
- Deemulqatorların aktivliyinə müxtəlif həlledicilərin təsirinin laboratoriya şəraitində tədqiqi;
- Səthi-fəal maddələr və həlledicilər əsasında effektiv deemulqatorların işlənib hazırlanması;
- Effektiv deemulqatorların bəzi fiziki-kimyəvi xassələrinin təyin edilməsi və deemulsasiyaetmə qabiliyyətinin tədqiqi;
- Hazırlanmış deemulqatorların deemulsasiyaetmə aktivliklərinin məlum deemulqatorların müvafiq nəticələri ilə müqayisəli təhlili.

**Kursun tərkibi:**

- Deemulqatorların hazırlanması;
- Hazırlanmış neftin keyfiyyətinə qoyulan əsas tələblər;
- Su-neft emulsiyaları barədə məlumat;
- Səthi-fəal maddələr haqqında məlumat;
- Deemulsasiya prosesinə müxtəlif amillərin – zaman, temperatur, deemulqatorların miqdarının təsiri;
- Elmi-tədqiqat laboratoriyası ilə əyani tanışlıq.

**Tədrisi aparan təlimatçı haqqında:**

Kazım İslam oğlu Mətiyev Azərbaycan (hazırda Bakı) Dövlət Universitetinin Kimya fakültəsini bitirmişdir. 30 ildən çoxdur ki, kimya sahəsində elmi-tədqiqat institutunda işləyir. Ölkə daxili və xaricdə nəşr olunan 54 elmi əsərin, o cümlədən 7 patentin müəllifidir. Kimya elmləri namizədi (1998), dosentdir (2013).

Əmək fəaliyyəti: 27 il Azərbaycan Milli Elmlər Akademiyasının Kimya Problemləri İnstitutunda aspirant, mühəndis, elmi işçi, 2013-cü ildən bu günə qədər "Neftqazelmitədqiqatlayihə" institutunda böyük elmi işçi, hazırda isə "Parafin və duz çöküntüləri ilə mübarizə" laboratoriyasının müdiri vəzifəsində çalışır.

Azərbaycan, rus və ingilis dillərini bilir.

Əmək fəaliyyəti ilə əlaqədar əməkdaşlıq etdiyi müştərək müəssisə və əməliyyat şirkətləri: Binəqədi OYL, "Bahar enerji" əməliyyat şirkəti, "Azneft" İB.

**Kursun keçirilmə yeri:**

"Neftqazelmitədqiqatlayihə" institutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər.
Həmçinin institut daxilində daha dərin kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.

Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (994 12) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:
"Neftqazelmitədqiqatlayihə" institutu
AZ 1012, Bakı şəhəri, H.Zərdabi pr.88a